# Xalq-ordu birliyi sayəsində möhtəşəm qələbəyə nail olduq

**2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmağa başlamış, nəticədə, mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olmuşdur. Bu hücumların qarşısının alınması məqsədilə şanlı Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı.**



Azərbaycan Respublikasının Prezidenti xalqa müraciət edərək dedi: “Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa, bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq... Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır"!

Vətən müharibəsinin başladığı ilk gündən əsgərlərimizin böyük ruh yüksəkliyi ilə cəbhədə qanları, canları bahasına qazandıqları uğurlar hamını bir nəfər kimi ayağa qaldırdı. Dövlət-ordu-xalq birliyinin yaranması bizi bir məqsəd ətrafında birləşdirdi. İstək, qərar bir oldu: düşmən tapdağı altında olan torpaqlarımızı işğaldan azad etmək. Müzəffər ordumuz elə ilk günlərdən öz gücünü düşmənə göstərdi. İşğaldan azad olunmuş kəndlərimizin, şəhər və rayonlarımızın televiziyada nümayişinin əks-sədası hər kəsdə böyük ruh yüksəkliyi yaratdı. Xalqımız erməni vandallarının qədim abidələrimizi, məscidlərimizi, məzarlıqlarımızı dağıtdıqlarının acışını yaşasa da, əsgər və zabitlərimiz faşist xislətli erməni qəsbkarlarının cəzalarını döyüş meydanında verdilər. Şəhidlərimizin qanı yerdə qalmadı. Müharibənin davam etdiyi 44 gün ərzində cəngavər əsgər və zabitlərimiz işğalda olan kəndlərimizi, şəhər, rayon və qəsəbələrimizi erməni tapdağından təmizlədi, düşməni geri oturtdu, onların hərbi istehkamlarını darmadağın etdi. Bu müharibə bütün dünyanın diqqətində idi. Ermənistan rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin dəfələrlə tələb etdiyi siyasi müstəviyə, sülhə gəlmədi. Prezident İlham Əliyev müharibənin ilk günündən Ermənistan dövlətinə, erməni xalqına, bütün dünyaya bəyan edirdi ki, bu münaqişənin hərbi yolu var, lakin biz məsələni sülh yolu ilə nizama salmaq istəyirik. Bizim torpaqlarda oğullarınızı qırdırmayın... Lakin, faşist xislətli düşmən bu humanist yanaşmaya əməl etmədi. Nəticə isə göz qabağındadır. Həmrəyliyimiz, milli birliyimiz qələbəmizi reallaşdırdı. Cənab Prezidentin həm xalqa müraciətində qeyd etdiyi bir çox məsələlər, həm də xarici ölkələrin mətbuatına verdiyi müsahibələr dəqiq faktlara, tarixi sənədlərə, gerçək hadisələrə söykəndiyindən, eləcə də hazırkı vəziyyəti siyasi, diplomatik səviyyədə təhlil etdiyindən, hesab edirik ki, gələcəkdə tariximizin bu səhifəsini öyrənənlər mütləq bu çıxışların mətninə istinad edəcəklər. Bu müraciətlər və müsahibələr yeni tariximizin yazılmasında və tarixçi alimlərimiz tərəfindən ən ciddi siyasi sənəd olaraq təhlil olunmaqla, misilsiz əhəmiyyət kəsb edəcəkdir.

Burda hadisələrin arxada qalmış bir mənzərəsinə də diqqət çəkməyi zəruri hesab edirik. Ermənistan rəhbərliyi həmsədrlər tərəfindən üç dəfə yaradılan humanitar atəşkəsdən humanistcəsinə yararlanmadı. Fikirləşmək olardı ki, hər iki tərəf son dərəcə ümdə olan bu hisslərin ifadəsi olan sənədə həssaslıqla yanaşacaq, təmkin nümayiş etdirəcək. Azərbaycan tərəfi bütün dünyanın gözü qarşısında bu sənəddən irəli gələn müddəalara ehtiram göstərdi, beynəlxalq hüquq və prinsiplərə riayət etdi. Ermənistan ordusu isə, müharibə zonasından uzaq olan şəhər və rayonlarımızı qadağan olunmuş raketlərdən, kasetli bombalardan atəşə tutdu.

Faşist xislətli erməninin son iki əsrdə azərbaycanlılara qarşı törətdikləri soyqırımı faciəsi, kəndlərimizi, şəhərlərimizi yandırması, soydaşlarımızı qaçqınlıq, didərginlik taleyi yaşamağa məhkum etməsi, açıq-aşkar göstərir ki, humanizm onlara yaddır. Bu vandallar dünyaya sanki qəsb etmək, dağıtmaq, öldürmək, baş kəsmək üçün gəliblər. Bəs Ermənistan üçün bu atəşkəs qərarı hansı mənanı ifadə etdi? Həmin qərarın təsdiqindən heç iki saat ötməmiş Ermənistan ordusu bizim ikinci böyük şəhərimiz olan Gəncəni "Toçka-U" raketləri ilə atəşə tutdu. Bir neçə gündən sonra Ermənistan ordusu Bərdə şəhərini raket atəşinə tutdu. Ermənistan ordusunun bu hərəkətləri 1949-cu ildə İsveçrənin Cenevrə şəhərində qəbul edilmiş konvensiyalara ziddir. Belə ki, Cenevrə konvensiyaları və onlara əlavə edilmiş protokollar silahlı münaqişələr zamanı yaralı, xəstə və gəmi qəzasına uğramış hərbçilərin vəziyyətini yaxşılaşdırmaq, hərbi əsirlərə baş çəkmək, mülki əhaliyə kömək göstərmək və ümumilikdə, humanitar hüquq ilə mühafizə edilən şəxslərə qarşı müvafiq rəftarı təmin etmək hüququnu müəyyən edir. Ermənistan ordusu Azərbaycanın dinc əhalisini hədəfə almaqla terror aktı, hərbi cinayət törətmişdir. Ermənistanın təxribatları nəticəsində sentyabr ayının 27-dən noyabrın 9-dək 94 mülki şəxs qətlə yetirilib, 414 nəfər yaralanıb, 3350-yə yaxın yaşayış evi və 504 mülki obyekt yararsız vəziyyətə düşmüşdür.

Bəli, işğalçı dövlət humanitar atəşkəs qərarından sonra bir daha özünün iyrənc simasını göstərdi, hərb meydanında döyüşə bilmədiyindən mülki əhaliyə qarşı terror əməliyyatlarına keçdi. Düşmənin dağıdıcı əməlləri, işğalçılıq məqsədləri xalqımızı hiddətləndirdi. Savaşın ilk günündən "Qarabağ Azərbaycandır!" həqiqətini ucadan və qətiyyətlə səsləndirdik, bu reallığı döyüş meydanında qəhrəmanlığımızla, üstünlüyümüzlə işğalçılara göstərdik. Şuşanın işğaldan azad olunması - Qələbə xəbəri dünyaya yayıldı. Dünya Azərbaycan Ordusunun yenilməzliyini, gücünü gördü. Bu qələbə, bu zəfər xalqımızın Ali Baş Komandanın ətrafında "dəmir yumruq" kimi birləşdiyini göstərdi. Bu ordumuzun bir mərkəzdən ağılla, siyasi uzaqgörənliklə idarə olunduğunu dünyaya nümayiş etdirdi. Prezidentin Azərbaycan xalqına verdiyi qələbə müjdəsinin doğurduğu hüdudsuz sevinc hissi, müraciətinin hər cümləsi bizi qürurlandırdı. Dünya Azərbaycanın bir dövlət olaraq gücünün bir daha fərqində oldu. Dünya Azərbaycan Respublikasının Prezidentinin siyasi, diplomatik hazırlığına, Müzəffər Ali Baş Komandan, yenilməz sərkərdə olduğuna bir daha əmin oldu.

Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev xalqa aşağıdakı məzmunda müraciət etdi: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar”.

Azərbaycan Prezidenti qeyd etdi ki, "biz bu qələbəni döyüş meydanında qazandıq. 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Şuşa şəhəri, Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi, digər qəsəbələr döyüş meydanında azad edildi. Bu qələbələr düşməni məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonları bizə siyasi yollarla qayıdır".

Bildirməyi zəruri hesab edirik ki, sentyabrın 30-da Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov ilə Türkiyə Respublikasının Ədliyyə naziri Abdulhamit Gül arasında telefon danışığı olmuşdur. Danışıq zamanı Abdulhamit Gül dost və qardaş Azərbaycana qarşı Ermənistanın törətdiyi hərbi təxribatı qınadığını, bu təxribatlar qarşısında Türkiyənin ölkəmizin və xalqımızın haqq davasında yanında olduğunu, Azərbaycanın beynəlxalq hüquqdan qaynaqlanan haqlarının hər platformada yorulmaz dəstəkçisi və müdafiəçisi olduğunu vurğulamışdır. Fikrət Məmmədov Türkiyə dövlətinin, Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla bütün türk xalqının qətiyyətli qardaşlıq mövqeyini vurğulayaraq Azərbaycanı birmənalı dəstəklədiyinə görə türkiyəli həmkarına dərin təşəkkürünü bildirib, bu dəstəyin "bir millət iki dövlət" kəlamının yalnız sözdə deyil, real əməllərlə həyata keçirilməsinin əyani təzahürü olduğunu qeyd etmişdir.

Fikrət Məmmədov Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatı ilə bağlı xarici ölkələrin Ədliyyə nazirlərinə rəsmi müraciət ünvanlayıb. Müraciətdə 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin milyondan çox insanın taleyinə ciddi təsir göstərmiş faciəvi nəticələri qeyd olunub. Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları irəli sürən Ermənistanın 90-cı illərin əvvəllərində hərbi təcavüzə başladığı və Azərbaycan əhalisinin etnik təmizləməsini həyata keçirərək Dağlıq Qarabağı və ətraf yeddi rayonunu işğal etdiyi, bir milyon insanın qaçqın və məcburi köçkünə çevrildiyi bildirilib.

Fikrət Məmmədov Beynəlxalq Prokurorlar Assosiasiyasının senatoru və fəxri üzvü kimi həmin təşkilatın Prezidentinə, Baş Katibinə, şenatorlarına və İcraiyyə Komitəsinin üzvlərinə müraciət ünvanlamışdır. Müraciətdə cinayətkarlıqla mübarizədə ön sıralarda dayanan və dünya prokurorlarını birləşdirən yeganə təşkilat olan Beynəlxalq Prokurorlar Assosiasiyasına Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təxribatları və müharibə cinayətləri barədə məlumat verilmişdir.

Noyabrın 9-da Yunanıstanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyi çərçivəsində üzv dövlətlərin ədliyyə nazirlərinin "Ədliyyənin müstəqilliyi və qanunun aliliyi" mövzusunda videoformatda konfrans keçirilmişdir. Həmin konfransda çıxış edən Azərbaycan Respublikasının Ədliyyə Naziri Fikrət Məmmədov Ermənistanın ölkəmizə qarşı müharibə cinayətlərini ifşa etmişdir.

Mən Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış tarixi hərbi qələbəmiz münasibəti ilə bütün Azərbaycan xalqını, o cümlədən bütün ədliyyə işçilərini ürəkdən təbrik edirəm.

***Daxil KƏRİMOV,***
***Bakı şəhər 21 saylı Notariat ofisinin notariusu***